Novruz Bayramınız Mübarək!

11/12 (1369) 19 mart - 2 aprel 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN İLƏ RUSİYA ARASINDA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNUB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.
Görüşdə Azərbaycan ilə Rusiya arasında parlamentlərarası əlaqələr, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. Valentina Matviyenko Bakı-Qroznı istiqaməti üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarına məxsus təyyarənin qəzaya uğraması ilə bağlı başsağlığını çatdıraraq, bu məsələnin Rusiyanın istintaq orqanları tərəfindən araşdırıldığını və ona obyektiv qiymət veriləcəyini bildirib.
Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında parlamentlərarası təmasların davam etdirilməsinə dair fikir mübadiləsi aparılıb.

## AZƏRBAYCAN İLƏ RUSİYA ARASINDA MÜNASİBƏTLƏR STRATEJİ MÜTTƏFİQLİK XARAKTERİ DAŞIYIR



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 16-da ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.
Birinci vitse-prezident Mehriban Əliyeva Valentina Matviyenkonu salamlayaraq, onun ölkəmizə səfərinin ölkələrimiz arasında parlamentlərarası əlaqələrin inkişafına töhfə verəcəyini qeyd edib.
Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri qəbula və qonaqpərvərliyə görə Birinci vitse-prezidentə təşəkkürünü bildirib.
Qonaq ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafında parlamentlərarası əlaqələrin və parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayıb.
Görüşdə Azərbaycan ilə Rusiya arasında münasibətlərin strateji müttəfiqlik xarakteri daşıdığı qeyd olunaraq ikitərəfli mədəni-humanitar əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

## "İKİTƏRƏFLİ GÖRÜŞLƏR QARŞILIQLI FƏALİYYƏTİN GENİŞLƏNDİRİLMƏSİ ÜÇÜN SON DƏRƏCƏ VACİBDİR"



*"Azərbaycan və Rusiya parlamentləri arasında ikitərəfli görüşlərin keçirilməsi konstruktiv qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün son dərəcə vacibdir".*
Bu sözləri martın 17-də Bakıda keçirilən Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının 22-ci iclasının açılış mərasimində Milli Məclisin sədri Sahibə Qafarova deyib.
Parlamentlərarası əməkdaşlıq komissiyasından danışan Sahibə Qafarova qeyd edib: *"Komissiyanın fəaliyyəti siyasi, iqtisadi və humanitar sahələrdə Azərbaycan-Rusiya əməkdaşlığının inkişafına kömək məqsədi daşıyır. Xüsusi qeyd etmək istərdim ki, Komissiya Azərbaycan və Rusiya parlamentləri arasında əlaqələrin tənzimlənməsi üçün real və effektiv mexanizmdir. Bunun konkret nəticələri var. Komissiyanın fəaliyyəti ümumi problemlərin həllinə birgə yanaşmaların işlənib hazırlanmasına kömək edir və iki ölkə arasında etimadın möhkəmlənməsinə, bununla da qanunverici orqanlarımız arasında əməkdaşlığın inkişafına töhfə verir".*

## "XALQLARIMIZ ARASINDAKI MÜNASİBƏTLƏR QARŞILIQLI HÖRMƏTƏ ƏSASLANIR"

"Müasir dünyada baş verən bütün mürəkkəb proseslərə baxmayaraq, xalqlarımız arasındakı münasibətlər qarşılıqlı hörmətə əsaslanır".
Bunu martın 17-də Bakıda keçirilən Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının 22-ci iclasının açılış mərasimində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko deyib.
Valentina Matviyenko qeyd edib ki, Rusiya Federasiyası Federal Məclisi ilə Azərbaycan Respublikası Milli Məclisinin əməkdaşlığı üzrə parlamentlərarası Komissiyası parlamentarilər arasında müntəzəm, birbaşa dialoqun qurulmasında, gələcək fəaliyyət planlarının əlaqələndirilməsində, birgə işin yol xəritəsinin tərtib olunmasında mühüm rol oynayırlar.

## "RUSİYA İLƏ AZƏRBAYCAN STRATEJİ TƏRƏFDAŞ VƏ MÜTTƏFİQLƏRDİR"



*"Bu, ilk növbədə, xalqlarımızın maraqlarına cavab verdiyi üçün mümkün olub".*
Bu sözləri martın 17-də Bakıda keçirilən Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının 22-ci iclasının açılış mərasimində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko deyib.
O bildirib: *"Biz münasibətlərimizi dostluq, qarşılıqlı hörmət prinsipləri əsasında, bir-birimizin milli maraqlarını nəzərə alaraq qururuq. Əlbəttə ki, bunda əsas rolu Rusiya-Azərbaycan əməkdaşlığının möhkəmləndirilməsi yolunu əsas kimi tutan prezidentlərimiz, liderlərimiz Vladimir Putinin və İlham Əliyevin iradəsi oynayır".*



# "Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq"




Biz 613 insanın, onlardan 60-dan çox uşağın və 100-dən artıq qadının ermənilər tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımını yaddan çıxarmayacağıq. Lakin, eyni zamanda, biz gələcəyə nəzər salmalıyıq.

Bu sözləri Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında söyləyib.

*"Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq"*, - deyən dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində, Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bəndlərin əksər hissəsi razılaşdırılıb.

# "COVID vaxtlarında 80-dən artıq ölkəyə fəal dəstək verdik"

"Dörd il ərzində 120 ölkəni birləşdirən təşkilatda - Qoşulmama Hərəkatında sədrlik etdik və fərqli durumda olan üzv dövlətlərə, o cümlədən COVID vaxtlarında 80-dən artıq ölkəyə humanitar və maliyyə yardımı göstərməklə onlara fəal dəstək verdik". Bu fikirləri Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında söyləyib.

Dövlətimizin başçısı qeyd edib: *"Eyni zamanda, biz Avropa tərəfdaşları ilə fəal əlaqədə olaraq Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü salan tərəf kimi öz rolumuzu gördük"*.

# "Əfsuslar olsun, COP29 bəzi Qərb medialarında kampaniyalarla müşayiət olundu"

"Bakıda keçirilən COP29 "Bakı sıçrayışı" kimi adlandırıldı və bu da orada qalan bir irsdir".

Bu sözləri Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında deyib.

*"Əfsuslar olsun ki, bu qlobal beynəlxalq tədbir bəzi Qərb medialarında kampaniya ilə müşayiət olundu"*, - deyən dövlətimizin başçısı bunu bir neçə mərkəzdən gördüyümüzü bildirib.

Bunlar arasında ABŞ-ın Dövlət Departamenti, "Vaşinqton Post", "Nyu-York Tayms", "Politico", "Newsveek" və "Assoşieyted Press" kimi yalan xəbər mənbələrinin, Fransa prezidentinin ofisinin, onların "Le Monde", "Figaro" qəzetlərinin olduğunu vurğulayıb.

# Prezident erməni diasporunu dəstəkləyən korrupsiyaya uğramış siyasətçilər barədə danışıb

Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında onilliklərlə erməni diasporunu dəstəkləyən korrupsiyaya uğramış siyasətçilərdən danışıb.

Dövlətimizin başçısı bununla bağlı deyib: *"...biz bu məsələni erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırmışıq. Çünki onlar indi böyük qardaşını dəyişiblər. Bu gün bu, Brüsseldir. Prezident Trampın qələbəsinə qədər bu, Dövlət Departamenti, USAID idi. Məhz indi ciddi problemlərlə üzləşən Menendes kimi rüşvətxor Amerika siyasətçiləri idi. Menendes siyahıda hələ sonuncu deyil. Necə deyərlər, bir qaranquşla bahar olmur. Xeyli digərləri var ki, erməni pulunu ciblərinə qoyurlar. Mən onların adını çəkə bilərəm, adları məlumdur: cənab Adam Şif, cənab Frenk Pallone, xanım Nensi Pelosi və bir çox digərləri var. Onlar onilliklər ərzində Azərbaycana hücum çəkmək və onu gözdən salmaq üçün Birləşmiş Ştatlarda erməni diaspor təşkilatlarından pullar alıblar"*.

# "Problemləri müəyyənləşdirmək və həll etmək üçün addımlar ata bilərik"

"Daha çox çoxmillətli qitələrin birləşdirilməsi son dərəcə vacibdir. Bu dəyişikliklərin dünyanı necə formalaşdırdığını, bərabərsizliklərə necə təsir edə biləcəyini müşahidə edə bilərik". Bunu jurnalistlərə açıqlamasında Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişel deyib.



*"Eyni zamanda, təzyiq altında olan ümumi prinsiplərə və öhdəliklərə baxış da mümkündür. Bu, bir-birimizi dinləmək, danışmaq və birlikdə ən yaxşı qərarları vermək üçün vacib bir fürsətdir. Problemləri müəyyənləşdirmək və həll etmək üçün addımlar ata bilərik. Hamımız birlikdə tarixi və reallıqları bərpa etməyi öyrənə bilərik. Beynəlxalq münasibətlər daha çox siyasi nəticələrə və seçimlərə layiqdir"*, - deyə Ş.Mişel diqqətə çatdırıb.

# "Parçalanmış dünyada yeni güclər səhnəyə çıxmaqdadır"

"Biz qlobal tarixin kəsişən nöqtəsində yaşayırıq. Bu dəyişikliklər təkcə nəzəri deyil, həmçinin real vaxtda ərsəyə gəlməkdədir".

Bunu XII Qlobal Bakı Forumu çərçivəsində keçirilən "Geosiyasi dəyişmələr: məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı" adlı panel iclasında Türkiyə Böyük Millət Məclisinin üzvü, sabiq xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

İkinci Dünya müharibəsindən sonrakı düzənin hələ də tam başa çatmadığını söyləyən Mövlud Çavuşoğlu bildirib: *"Lakin biz qəbul etməliyik ki, 80 il yaşadığımız dövr artıq dəyişir. Türkiyə olaraq düşünürük ki, əvvəlkindən fərqli olaraq Rusiya-ABŞ-dan çox, Çin-ABŞ rəqabətini görəcəyik. Parçalanmış dünyada yeni güclər səhnəyə çıxmaqdadır. Bu məsələlər qlobal Qərb tərəfindən başa düşülməlidir. Biz ən azından gözləntiləri başa düşməliyik. Əvvəlki sistem hələ tam dağılmayıb. Biz islahatlar apararaq hamının iştirakı ilə yeni sistem qurmalıyıq. Əməkdaşlıq çərçivəsində münasibətləri dəyişməliyik"*.



# "Qlobal Bakı Forumu mühüm məsələlərin həllində aparıcı beynəlxalq platformalardan biridir"

"Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm ki, bu illər ərzində çox əla işlər görmüşdür və belə bir mühüm beynəlxalq tədbiri təşkil edir". Bu sözləri Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında deyib. Dövlətimizin başçısı bildirib: *"Biz çox fərəhlənirik ki, Qlobal Bakı Forumu qlobal gündəlikdəki mühüm məsələlərin həllində aparıcı beynəlxalq platformalardan birinə çevrilib"*.

# "Bu gün Azərbaycan ondan artıq ölkənin enerji təhlükəsizliyinə töhfə verir"

"Azərbaycanda COP29-u təşkil etmək qərarı Azərbaycanın öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşmasından irəli gəlir". Bu barədə Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında bildirib. Dövlətimizin başçısı qeyd edib: *"Bir daha qeyd etmək istəyirəm ki, ölkə enerji təchizatı baxımından qıtlıqla üzləşmir. Əksinə, bu gün Azərbaycan ondan artıq ölkənin enerji təhlükəsizliyinə töhfə verir. Onların 12-si Azərbaycandan təbii qaz alır. Bu 12 ölkədən 10-u Avropa ölkəsidir. Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır"*.




# "Biz işğal illərini yaddan çıxara bilmərik və çıxarmayacağıq"

"Ermənistan-Azərbaycan prosesinə gəldikdə, biz işğal illərini, o cümlədən Ermənistanın işğalı və təcavüzü nəticəsində Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri yaddan çıxara bilmərik və çıxarmayacağıq".

Bunu Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında bildirib.

*"Azad olunmuş ərazilərə səfər edənlər barbarlıq səviyyəsini görə bilər. Bütün şəhərlərimiz xarabalığa çevrilib. İndi isə biz onları yenidən tikirik. Hər bir şey yerlə-yeksan olunubdur və bu, kəndlərimizə, şəhərlərimizə qarşı bilərəkdən urbisid idi, dinimizə və tarixi irsimizə qarşı bilərəkdən zərbə idi. 65 məscid dağıdılıb"*, - deyə dövlətimizin başçısı əlavə edib.

# "Dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır"

"Fransa və onun Prezidenti. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Bu gün başqa yerdə lazım ola biləcək "Sezar" haubitsaları Ermənistana göndərilir".

Bu sözləri Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında bildirib.

Dövlətimizin başçısı qeyd edib: *"Əslində, Avropa İttifaqının kəşfiyyat missiyası olan dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır və baxırlar ki, bəlkə haradan, bir yerdən girə bilsinlər. Bizim də həmin dırnaqarası monitorinq missiyası barədə kifayət qədər kəşfiyyat məlumatımız var"*.

# "Antoni Blinkenin siyasəti ABŞ-Azərbaycan münasibətlərini heçə endirdi"

"Antoni Blinkenin Azərbaycana aid siyasəti, əslində, 30 il qurduğumuz ABŞ-Azərbaycan münasibətlərini heçə endirdi".

Bunu Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında deyib.

*"Biz hər zaman ABŞ-ın çox etibarlı, yaxın tərəfdaşı olmuşuq. Biz onlara lazım olanda onlarla idik. Biz onlara İraqda lazım olanda, qoşunla onlarla idik. Biz onlara Əfqanıstanda lazım olanda, 2001-ci ildə Əfqanıstanda əməliyyatlara qoşulan ilk qeyri-NATO ölkələrindən idik və oradan sonuncu çıxdıq. Lakin biz çıxandan sonra onlar bizə sanksiya tətbiq etdilər"*, - deyən dövlətimizin başçısı bunun Azərbaycanda böyük məyusluq yaratdığını xatırladığını söyləyib.

# "Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var"

"Bu gün hər kəs tərəfindən bölüşülən fikir odur ki, hazırda yeni qaydaların müəyyənləşdirilməsi prosesi baş verir. Bildiyimiz dünya nizamı artıq mövcud deyil. Hələ ki, beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq qarşılıqlı əlaqə konfiqurasiyası heç kəsə bəlli deyil. Buna dair fərqli fikirlər var".



Bu fikirləri Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində söyləyib.

Dövlətimizin başçısı deyib: *"Lakin aydın olan odur ki, birincisi, hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır. Beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var"*.

# Biz qlobal nizamı olduqca düzgün qiymətləndirirdik

"Biz qlobal nizamı olduqca düzgün qiymətləndirirdik. Milli maraqlarımız məsələsində biz heç kəsə və ya heç bir təsisata arxalanmamışıq. Olsun Rusiya-Ukrayna müharibəsi, yaxud Yaxın Şərqdəki hadisələr və Afrikadakı gərginlik – hər bir ölkə anlamalıdır ki, o, öz taleyinin sahibidir".

Bu fikirləri Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində səsləndirib.

Dövlətimizin başçısı deyib ki, onlar bunu nə qədər tez başa düşsələr, bu, onlar üçün bir o qədər də yaxşı olar. *"Çünki əgər siz həmişə kiminsə yardımına bel bağlasanız, birincisi, bu, sizi zəiflədəcək, ikincisi, bu yardımın daimi olacağına dair heç bir zəmanət yoxdur, üçüncüsü də siz suverenliyinizin bir hissəsini itirmiş olursunuz"*, - deyə Prezident İlham Əliyev əlavə edib.

# "Tramp administrasiyası dövründə ABŞ-la güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq"

"Biz ABŞ-nin əvvəlki administrasiyası və Azərbaycan arasında münasibətlərin pisləşməsindən məyusluq hissi keçirmişdik".

Bunu Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində bildirib. Onların mövqeyinin bizim milli maraqlarımıza ədalətsiz yanaşmadan ibarət olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: *"Buna görə biz Tramp administrasiyası dövründə ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq"*.

19 mart - 2 aprel 2025-ci il

# Milli Məclisin iclasında Nazirlər Kabinetinin hesabatı dinlənilib

***Martın 14-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib.***

İclası açan Sahibə Qafarova əvvəlcə martın 10-11-də Milli Məclisin nümayəndə heyətinin Gürcüstana rəsmi səfəri barədə qısa məlumat verib.

Sonra Milli Məclisin sədri iclasın gündəliyində bir məsələnin - Nazirlər Kabinetinin ötən ildəki fəaliyyəti barədə hesabatının olduğunu deyib.

Bildirilib ki, ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər hökumət tərəfindən diqqətlə araşdırılıb və deputatlara bu təkliflərin icra vəziyyətinə dair ətraflı məlumat təqdim edilib.

Sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı təqdim edib.

Baş nazir qeyd edib ki, 2024-cü il Azərbaycanın müasir tarixinə əlamətdar siyasi hadisələrin baş verdiyi, möhtəşəm nailiyyətlərin əldə edildiyi il kimi yazılıb. Belə ki, ötən il Vətənimizin müstəqillik tarixində ilk dəfə olaraq bütün suveren ərazimizdə növbədənkənar prezident və növbədənkənar parlament seçkiləri keçirilib.

Diqqətə çatdırılıb ki, COP29-un Bakıda keçirilməsi, Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv seçilməsi ötən ilin ən yaddaqalan hadisələrindən olub.

## “2024-cü ildə əhalinin hər nəfərinə düşən ÜDM 3,6 faiz artıb”




“2024-cü ildə xarici ticarət dövriyyəmiz təxminən 47,4 milyard ABŞ dollarına çatıb, müsbət ticarət saldosu 5,3 milyard dollar olub. Qeyri-neft ixracı 3,3 milyard dolları üstələyib”.

Bunu Baş nazir Əli Əsədov Milli Məclisin martın 14-də keçirilən iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının təqdimatı zamanı deyib.

Baş nazir bildirib ki, hesabat ilində ölkədə 126,3 milyard manatlıq və ya 2023-cü illə müqayisədə real ifadədə 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. 2024-cü ildə ÜDM istehsalı neft-qaz sektorunda 0,3 faiz, qeyri-neft-qaz sektorunda isə 6,2 faiz artıb. Qeyri-neft-qaz sənayesi 7,3 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM isə 3,6 faiz artaraq 12,4 min manat təşkil edib.

## “Azərbaycanın strateji valyuta ehtiyatları xarici dövlət borcunu 14 dəfə üstələyir”

“2024-cü ildə ölkənin strateji valyuta ehtiyatları 2,5 milyard dollar (və ya 3,7 faiz) artaraq 71 milyard dollar (hazırda 73 milyard dollar) təşkil edib və xarici dövlət borcunu 14 dəfə üstələyir”.

Bunu Baş nazir Əli Əsədov Milli Məclisin martın 14-də keçirilən iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının təqdimatı zamanı deyib.

Baş nazir bildirib ki, ilin sonuna xarici dövlət borcunun məbləği 20,6 faiz azalaraq 5,1 milyard dollar olub və ÜDM-in cəmi 6,9 faizini təşkil edib. Hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri, valyuta bazarında tarazlığın qorunması, məzənnə sabitliyi, makrofiskal və monetar siyasətlə bağlı qərarlar inflyasiyaya azaldıcı təsir edib.

O, həmçinin deyib ki, hesabat ilində illik inflyasiya hədəf diapazonu daxilində olub. Belə ki, 2024-cü ilin dekabr ayında 12 aylıq inflyasiya 4,9 faiz, orta illik inflyasiya isə 2,2 faiz təşkil edib.

## “Ötən il dövlət büdcəsinin gəlirləri təxminən 37,2 milyard manat təşkil edib”

“2024-cü ildə dövlət büdcəsinin gəlirləri təxminən 37,2 milyard manat (102 faiz icra), xərcləri isə 37,7 milyard manat (95 faiz icra) təşkil edib. Beləliklə, dayanıqlı iqtisadi artım üçün makroiqtisadi - maliyyə sabitliyi və inflyasiyanın aşağı birrəqəmli səviyyəsi təmin edilib”. Bunu Baş nazir Əli Əsədov Milli Məclisin martın 14-də keçirilən iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının təqdimatı zamanı deyib.

Baş nazir bildirib ki, maliyyə vəziyyətimizin yaxşılaşması nəticəsində qeyri-neft sektorunda iqtisadi fəallığın təmin edilməsi, sahibkarlığın inkişafı və yerli istehsalın stimullaşdırılması, vergi-gömrük güzəştləri, biznes-investisiya mühitinin yaxşılaşdırılması, habelə dövlətlə özəl sektor arasında birgə maliyyələşdirmə istiqamətində kompleks işlər davam etdirilib.

O qeyd edib ki, investisiya təşviqi ilə bağlı yeni mexanizmlər əsasən regionların inkişafına və investisiya potensialının artırılmasına yönəldilib. 2024-cü ildə sənaye zonalarında 3,3 milyard manat dəyərində məhsul istehsal olunub, ondan 1,1 milyard manat həcmində məhsul ixracı edilib.

*(davamı 4-cü səhifədə)*






# Milli Məclisin iclasında Nazirlər Kabinetinin hesabatı dinlənilib

## “Ötən il sosial ödənişlərin artırılması ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunub”



“2024-cü ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, xüsusən də aztəminatlı təbəqənin alıcılıq qabiliyyətinin və real gəlirlərinin yüksəldilməsi məqsədilə sosial ödənişlərin artırılması ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunub”.

Bunu Baş nazir Əli Əsədov Milli Məclisin martın 14-də keçirilən iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının təqdimatı zamanı deyib.

Baş nazir bildirib ki, 2024-cü ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsi xərclərinin 39 faizi və ya 14,6 milyard manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilib.

O qeyd edib ki, 2024-cü ildə orta pensiya məbləği 12 faiz, yaşa görə pensiya 11,3 faiz artıb, yaşayış minimumu ölkə üzrə 270 manat müəyyən edilib (9,8 faiz artım). Bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği 475 manat olub.

## “Bu il 65 min hektardan artıq ərazinin minalardan təmizlənməsi planlaşdırılır”



“İşğaldan azad olunmuş ərazilərdə geniş minatəmizləmə işləri aparılıb. 2024-cü ildə 62 min hektar, ümumilikdə isə işğaldan azad edilmiş ərazilərdə 180 min hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib”.

Bunu Baş nazir Əli Əsədov Milli Məclisin martın 14-də keçirilən iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının təqdimatı zamanı deyib.

Baş nazir bildirib ki, 2025-ci ildə 65 min hektardan artıq ərazinin minalardan təmizlənməsi planlaşdırılır.

## “Səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə ayrılan vəsaitin məbləği 8 faizdən çox artıb”

“Hesabat ilində səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədilə əhalinin icbari tibbi sığortalanması və bu sahədə bir sıra dövlət proqramlarının icrası üzrə büdcədən 1 milyard 368 milyon manat vəsait ayrılıb (artım 8,2 faiz)”.

Bunu Baş nazir Əli Əsədov Milli Məclisin martın 14-də keçirilən iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının təqdimatı zamanı deyib.

Baş nazir bildirib ki, hökumət tərəfindən əhalinin sağlamlığının qorunması məqsədilə qarşıdakı dövrdə tibbi xidmətlər zərfinin genişləndirilməsi nəzərdən keçirilir.

## “Keçən il dövlət büdcəsindən təhsil xərclərinə təqribən 4,5 milyard manat vəsait ayrılıb”

“Təhsilin inkişafı ilə bağlı qəbul olunan mühüm strategiya və proqramlar nəticəsində dövlət büdcəsindən təhsil xərclərinə 4 milyard 550 milyon manat vəsait ayrılıb (artım 10,3 faiz)”.

Bunu Baş nazir Əli Əsədov Milli Məclisin martın 14-də keçirilən iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının təqdimatı zamanı deyib.

Ə.Əsədov bildirib ki, 2024-cü ildə investisiya xərcləri hesabına 57 təhsil müəssisəsində tikinti işləri aparılıb.

***“Xüsusi vurğulamaq istərdim ki, işğaldan azad olunmuş ərazilərdə ötən il ilk ali təhsil müəssisəsi - Qarabağ Universiteti fəaliyyətə başladı. Xankəndi şəhərində yerləşən bu universitetdə hazırda 6 fakültə var, 27 ixtisas üzrə 1154 tələbə təhsil alır və 160 nəfər çalışır”***, - deyə Baş nazir əlavə edib.

## “AzerGold” QSC və DMXEİA-nın rəhbərliyi mişardaşı karxanası və əhəngdaşı yataqlarına baxış keçirib

***“AzerGold” QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədri Samir İdayətov 15 mart 2025-ci il tarixində Qaradağ rayonunda yerləşən bir neçə mişardaşı karxanası və əhəngdaşı yataqlarına baxış keçirib.***



Dövlət başçısının “Azərbaycan Respublikasında qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2024-cü il 23 dekabr tarixli Sərəncamından irəli gələn öhdəliklərin icrası məqsədilə təşkil edilən görüşdə istehsal sahələri və yataqlarda mövcud vəziyyətlə əyani tanışlıq həyata keçirilib, sahibkarların rəy və təklifləri müzakirə edilib.

Görüşlərdə yerli icra hakimiyyəti orqanlarının səlahiyyətli nümayəndələri, həmçinin “AzerGold” QSC-nin prosesə cəlb etdiyi nüfuzlu beynəlxalq məsləhətçi şirkəti “Boston Consulting Group”un təmsilçisi iştirak edib.

Keçirilən görüşlər zamanı istismarla əlaqədar sənədlərdə rast gəlinən uyğunsuzluqlar, qeyri-qanuni hasilat, əməyin mühafizəsi, rekultivasiya, tullantıların utilizasiyası üzrə qanunvericiliyin tələblərinə əməl edilməməsi, müşahidə olunan digər problemlər və onların həlli yolları ətrafında geniş fikir mübadiləsi aparılıb. Görüşlərdə sahibkarların təşəbbüsləri dinlənilib, təhlil edilməsi üçün qeydiyyata alınıb.

“AzerGold” QSC tərəfindən beynəlxalq məsləhətçi şirkət cəlb edilməklə cari ilin əvvəlindən etibarən aparılan intensiv araşdırmalar, sahə səfərləri, sorğu və təhlillərin nəticələrinə əsasən təkliflərin hazırlanması bu istiqamət üzrə səmərəliliyin və şəffaflığın artırılması, nəzarət mexanizmlərinin daha da təkmilləşdirilməsi, innovativ texnologiyaların tətbiqi ilə fəaliyyətin yerli qanunvericilik və beynəlxalq ekoloji tələblər əsasında təşkil edilməsi, müvafiq prosedurların sadələşdirilərək sahibkarların fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması, yerli istehsalatın dünya bazarının çağırışlarına uyğunlaşdırılmasına xidmət edir.

# İnvestisiya əməkdaşlığının prioritetləri müzakirə edilib

“Azərbaycan və İsrail arasında investisiya əməkdaşlığının prioritetləri müzakirə edilib”.

Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.

Nazir deyib ki, bu barədə müzakirələr İsrailə işgüzar səfər zamanı bu ölkənin iqtisadiyyat və sənaye naziri Nir Barkat ilə görüşdə aparılıb: ***“Görüşdə sənaye zonaları çərçivəsində işbirliyi, işgüzar dairələr və biznes subyektləri arasında əlaqələrin gücləndirilməsi barədə müzakirələrimiz olub”.***



## “AzerGold” QSC Göygöl rayonunda növbəti sosial yardım aksiyası təşkil edib



“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti Novruz bayramı münasibətilə bir qrup aztəminatlı ailəyə bayram sovqatları paylayıb. Sosial aksiya Göygöl rayonunun Tülallar və Zurnabad kəndləri üzrə aztəminatlı ailələri əhatə edib.

Novruz bayramı ərəfəsində Cəmiyyətin nümayəndələri müxtəlif ərzaq məhsullarından ibarət bayram sovqatlarını ucqar kəndlərdə yaşayan ailələrə təqdim ediblər. Onlara Novruz bayramı münasibətilə Cəmiyyət adından təbriklər çatdırılıb.

Qeyd edək ki, "AzerGold" QSC-nin hasilat fəaliyyəti apardığı mədənlərin yaxınlığında yerləşən kənd və qəsəbələrdə mütəmadi olaraq təşkil edilən bu tip sosial yardım aksiyaları dövlət proqramlarına dəstək xarakteri daşıyır. Məqsəd bölgədə yaşayan aztəminatlı ailələrin qayğı ilə əhatələnməsi, əlamətdar günlərdə bayram əhval-ruhiyyəsi yaşatmaqdır.

## UNEC-də “Elm və təhsildə rəqəmsal transformasiya problemləri” müzakirə edilib

13 mart 2025-ci il tarixində UNEC-də professor-müəllim heyətinin iştirakı ilə “ELM VƏ TƏHSİLDƏ RƏQƏMSAL TRANSFORMASİYA PROBLEMLƏRİ” mövzusunda kemirilib. İştirakçılar təhsil eksperti, dos. İlham Əhmədovun bu mövzuda məruzəsini dinlədilər. Məruzədə qeyd edildi ki, bu ilin əvvəlində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzası ilə “Azərbaycanın Rəqəmsal İnkişaf Konsepsiyası” təsdiq edilib. Bu konsepsiya dövlət idarəçiliyini və iqtisadi inkişafı rəqəmsal texnologiyalarla inkişaf etdirməyi hədəfləyir. Konsepsiyada rəqəmsal təhsil məsələlərinə xüsusi yer ayrılıb. Konsepsiyada qeyd edilib ki, rəqəmsal təhsilin tətbiqi, bu proseslərə məsul şəxslərin, struktur bölmələrin müəyyən edilməsi, tədris proseslərinin avtomatlaşdırılması, rəqəmsallaşdırılması, elm-təhsil sahəsində inkişafın sinxronlaşması və yarana biləcək çətinliklərin aradan qaldırılması diqqətdə olmalıdır.



Məruzədə konsepsiyanın elm və təhsil sistemi qarşısında qoyduğu ciddi problemlər, onların həll yolları, o cümlədən milli universitetlərin rəqəmsal yetkinliyi və rəqəmsal inkişaf strategiyaları, elm və təhsil sistemində süni intellektin tətbiqləri barədə fikirlər irəli sürüldü.

Məruzədə qeyd edildi ki, bu məsələlərin həlli istiqamətində ETN qarşısında ciddi vəzifələr durur. Bizim milli universitetlərimiz hələ də rəqəmsal yetkinlik səviyyəsinə yüksələ bilməyib, universitetlərin rəqəmsal inkişaf strategiyaları yoxdur. Belə strategiyaların yaradılmasına kəskin ehtiyac var.

Eyni zamanda universitetlər ali təhsilin rəqəmsal transformasiyası üzrə bakalavr və magistr səviyyəsində kadr hazırlığına başlamalı, rəqəmsallaşma istiqamətində silsilə xarakterli layihələr icra etməlidirlər. Təəssüf ki, universitetlərimiz bu məsələlərdə nəinki qlobal səviyyədə, hətta regional səviyyədə də geridədir. Türkiyə, Rusiya, İran, Qazaxstandan bu məsələlərdə xeyli geridəyik. Bu sahədə geriliyimizn bir səbəbi də 25 il ərzində ölkəmizdə distant təhsilin inkişafına şəraitin yaradılmaması olmuşdur.

Daha sonra məruzə ətrafında müzakirələr oldu. İştirakçılar məruzədə qaldırılan məsələlərin universitetlərimizin inkişafı üçün zəruri olduğunu, bu məsələlərə gələcəkdə fokuslanmağın əhəmiyyətini qeyd etdilər.

Təhsil eksperti İlham Əhmədovun daha bir neçə universitetdə bu mövzuda məruzələr etməsi nəzərdə tutulur.

# "Maliyyə nəzarəti - dövlətin və özəl sektorun konstitusion hüquqlarının müdafiəsinin təminatçısı kimi" mövzusunda konfrans keçirilib








*2025-ci il 13 mart tarixində "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş "Maliyyə nəzarəti - dövlətin və özəl sektorun konstitusion hüquqlarının müdafiəsinin təminatçısı kimi" mövzusunda konfrans keçirilib.*

Ölkə Prezidenti İlham Əliyev cənabları tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi və bununla bağlı "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli Sərəncamından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə 2025-ci il 13 mart tarixində "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş "Maliyyə nəzarəti - dövlətin və özəl sektorun konstitusion hüquqlarının qorunmasının təminatçısı kimi" mövzusunda konfrans keçirilib. Konfrans öz işinə başlamazdan əvvəl tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin büstünü və Vətən uğrunda canından keçmiş şəhidlərin kompleksini ziyarət edərək onların əziz xatirəsini dərin ehtiramla yad edib, abidələri önünə gül dəstələri düzüblər.

Konfransda açılış nitqi ilə çıxış edən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov qonaqları salamlayıb, tədbirin əhəmiyyətindən bəhs edib və konfransın işinə uğurlar arzulayıb.

Tədbirdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli "Vergi islahatlarının maliyyə nəzarətinin gücləndirilməsinə və özəl sektorda uçot sisteminin bərpasına təsiri", Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini Natiq Şirinov "Rəqəmsal gömrük: Ticarətin asanlaşdırılması və büdcə dayanıqlılığı kontekstində", Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədr müavini Azər Abbasov "ƏL/TMM-ə qarşı mübarizə ölkənin maliyyə təhlükəsizliyinin mühüm amili kimi", Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov "Maliyyə təhlükəsizliyi və kadr hazırlığına yeni dövrün çağırışları", Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə "Azərbaycan Respublikasında maliyyə nəzarətinin qanunvericilik bazası və onun təkmilləşdirilməsi məsələləri", Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov "Audit konstitusiya və suverenlik zəminində", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Qorxmaz İmanov "Süni intellektin maliyyə nəzarətində istifadə imkanları", Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Maliyyə və audit" kafedrasının müdiri Əvəz Ələkbərov "Maliyyə şəffaflığı, elm və praktikanın vəhdəti: müasir çağırışlar", Azərbaycan Respublikası Hesablama Palatasının şöbə müdiri Zaur Vəliyev "İqtisadi təhlükəsizliyin təmin edilməsində dövlət auditinin rolu", Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Uçot siyasəti şöbəsinin müdiri Firuzə Abdullayeva "Dövlət maliyyə nəzarəti və audit", Azərbaycan Respublikası Auditorlar Palatasının Şura üzvü, sərbəst auditor Altay Cəfərov "Özəl sektorun dayanıqlı inkişafında və qanuni mənafelərin qorunmasında auditin rolu", Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti Elşad Səmədzadə "Maliyyə nəzarəti konstitusiya hüquqlarının keşiyində", Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, "SR Audit Solutions" MMC-nin direktoru Səftər Vəlizadə "Qanunsuz yolla əldə olunmuş əmlakın leqallaşdırılmasına qarşı mübarizədə müstəqil auditin rolu və vəzifələri", "Bakı Metropoliteni" QSC-nin Daxili audit departamentinin rəisi Elvin Hacıyev "Dövlət investisiya layihələrinin səmərəliliyinin təmin olunmasında maliyyə nəzarətinin rolu" mövzularında məruzələrlə çıxış ediblər və faydalı fikir mübadiləsi aparılıb.

***Konfransda dövlət qurumlarının nümayəndələri, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professor-müəllim heyəti, Auditorlar Palatasının üzvləri və kollektivi, Azərbaycan İqtisadçılar İttifaqının nümayəndələri iştirak ediblər.***






# ИТОГИ ЗАВЕРШАЮЩЕЙСЯ ПЯТИЛЕТКИ КАК ОСНОВА УСПЕШНОГО РАЗВИТИЯ БЕЛАРУСИ

***Подводить итоги пятилетки, с одной стороны, еще рано. С другой, – изменения геополитической обстановки побудили изменить многие тренды внутреннего развития. За последние несколько лет (всего лишь) произошли такие масштабные, «тектонические» сдвиги сил на мировой арене, что это запустило глобальное переформатирование международных отношений, в том числе в области мировой торговли, организации денежных потоков, всей сферы производства.***

Наша страна, как государство с открытой экономикой, была вынуждена оперативно перестраиваться «на марше». К настоящему времени скорректировались акценты по многим направлениям. До конца пятилетки еще около года, но многие векторы стали менее актуальны, другие, напротив, становятся локомотивами развития. То есть производственный потенциал Беларуси переживает качественную перестройку, уже определяющую дальнейшее движение вперед с новых позиций в новой приближающейся пятилетке.

Среднестатистический белорусский гражданин не почувствовал эти перемены остро на самом себе по ряду причин (в отличие, например, от граждан Украины, Сирии и даже ЕС – энергопотребление в быту, потеря работы по причине переноса предприятий в другие регионы мира, нагнетание военной истерии и др.)

**Во-первых,** мы находимся внутри процесса и по-настоящему его не чувствуем, не осознаем, как было бы при наблюдении со стороны.

**Во-вторых,** Беларусь, благодаря усилиям руководства страны и, прежде всего, ее лидера постоянно корректирует свое позиционирование на мировой арене таким образом, чтобы находиться внутри «ока циклона» («глаза бури», «ока урагана»), и это нам удается.

**В-третьих,** несмотря на все перемены, катаклизмы и необходимость постоянной адаптации стратегии развития к требованиям дня, социальные обязательства исполняются без изменений, более того, с запланированным приростом. Такое положение вещей создает иллюзию спокойствия, беспроблемности и безмятежности по принципу «А что такого? Так и должно быть!»

Поэтому о некоторых острых моментах следует напомнить.

К сожалению, многие вызовы, потребовавшие внутренней реорганизации, носили внешний, искусственный и крайне недружелюбный характер, связанный с санкционным давлением. Так, прибалтийские соседи закрыли свои порты для экспорта белорусских удобрений, прежде всего калийных. Данная позиция всегда играла важную роль во внешней торговле Беларуси, являющейся одним из ведущих игроков мирового рынка в этой товарной группе. Враждебная мера, точнее – удар, был весьма чувствительным. До налаживания новой логистики потеряна значимая доля валютных поступлений. Ряд других предприятий были вынуждены частично или полностью уйти с традиционных рынков сбыта.

Однако для того, кто не собирается сдаваться, вызов – это всегда и возможность новых решений.

Белорусские предприятия, производившие электронные компоненты, весь период после распада СССР переживали не простые времена. На сегодняшний день меры, предпринимавшиеся по сохранению отрасли, как выясняется, полностью себя оправдали. Как минимум в рамках Союзного государства продукция ОАО «Интеграл» является сверх востребованной. Совместно с ОАО «Планар» эти предприятия сыграют для Беларуси роль локомотива для прорыва в шестой технологический уклад. Движение в этом направлении







гарантированно обеспечит серьезной работой (а не игрушки сочинять по большей части для иностранных фирм) белорусский IT сектор.

Почти умершее станкостроение на глазах получает второе дыхание и большое будущее, являясь важнейшим компонентом в обеспечении промышленного суверенитета Союзного государства.

Машиностроение стремительно осваивает электрическую тягу. Антироссийские санкции создают возможность для ОАО «БеЛАЗ» вытеснить технику основного конкурента – Caterpillar Inc из карьеров Российской Федерации. Буквально «грязными» методами Беларусь выдавливается Польшей и странами Балтии с рынка континентальных транспортных услуг. Вместе с тем за нашей страной закрепился основной коридор железнодорожного транзита по «Новому шелковому пути» Китай – Западная Европа – Китай. Контейнерные перевозки по этому направлению растут на десятки процентов ежегодно. Результативной стала работа по упразднению разрешительной системы в сфере международных автомобильных перевозок с рядом иностранных государств.

*Справочно:*

Подписаны соглашения с Россией, Турцией, Ираном, Кыргызстаном; ведется работа по заключению соглашений с Катаром, Ираком, Объединенными Арабскими Эмиратами, Оманом, Саудовской Аравией, Арменией, Таджикистаном и Узбекистаном).

В настоящее время выполнение международных автоперевозок грузов возможно по территории 14 иностранных государств.

Не удалось «закрыть небо» для белорусских авиаторов. На воздушном транспорте увеличена частота и расширена маршрутная сеть регулярных и чартерных рейсов.

IX əsrin əvvəllərində Əl-Fihri ailəsi bir çox digər ərəblərlə birlikdə Tunisi tərk edərək, o zamanlar dövrün standartlarına görə səs-küylü, kosmopolit bir meqapolis hesab edilən Fezə mühacirət edir. Atası vəfat edəndə onun sərvəti Fatiməyə miras qalır. Sonra bacılar pulu yerli icmalarına fayda verəcək bir işə yatırmağa qərar verirlər. 859-cu ildə Əl-Fihri bacıları şəhərin ali təhsil müəssisəsinə ehtiyacı olduğunu nəzərə alaraq Əl-Qaraviyin məscidi və universitetini təsis etməyə qərar verirlər. Universitetə doğma Tunisdə Fez şəhərində köçkünlərin məskunlaşdıqları məhəllə - Qaraviyinin adını verirlər. Universitetin həyətinin, ibadətgahının, kitabxanasının və məktəbinin tikintisinə Fatimə özü nəzarət edib.

Əvvəlcə Əl-Qaraviyinin tədris hissəsində dinşünaslıq və Quran kursları təklif edilirdi, lakin onun tədris planı getdikcə ərəb dilinin qrammatikası, riyaziyyat, musiqi, tibb və astronomiyanı əhatə etdi və genişləndi, sonra məzunlara elmi dərəcələr verilməyə başladı. Universitet tez bir zamanda dünyanın hər yerindən alimlərin və ziyalıların ziyarət etdiyi tanınmış din və təhsil mərkəzinə çevrildi. Əl-Fihri sonrakı illərinə qədər orada mühazirələrdə iştirak etdi.

**Fatimə niyə pioner hesab olunur?**

Əl-Fihrinin təhsil mərkəzi ideyası orta əsrlərdə bütün dünyaya yayılmağa başladı. O, bu gün bildiyimiz universitet konsepsiyasını yaratdı. Onun dərin öyrənmə imkanlarını təmin edən təhsil mərkəzi ideyası sonrakı əsrlərdə ən qədim Avropa təhsil mərkəzlərinin, o cümlədən Bolonya Universitetinin (1088-ci ildə yaradılıb) və Oksford Universitetinin (təxminən 1096-cı ildə yaradılıb) təsis edilməsinə səbəb oldu. Müqayisə üçün dünyanın ən qədim universitetlərinin siyahısına nəzər salsaq, görərik ki, Kembric Universiteti 1209-cu ildə, Salamanka Universiteti 1134-cü ildə, Oksford Universiteti 1096-cı ildə, Bolonya Universiteti 1088-ci ildə yaradılıb.

***Əl-Fihrinin ölümündən sonra qurum genişlənməyə davam etdi. Məscid 22000 nəfər tutumu ilə Afrikanın ən böyük məscidinə çevrilib. İlkin məscid 30 metr uzunluğunda həyəti və dörd enində dəhlizi olan tikili idi. 956-cı ildə ibadət zalı genişləndirildi və minarə xarakterik dördbucaqlı formasını aldı. 1135-ci ildə yardımçı tikililərin sayı 22-yə çatdırıldı; Fatimə ona miras qalan bütün vəsaiti mühacirlər üçün məscid tikintisinə xərcləmişdi. Hazırda Əl-Qaraviyinin tutduğu ümumi ərazi 3000 $m^2$-dən çoxdur. Daxili həyət məscid üçün xüsusi olaraq hazırlanmış kirəmitlərlə döşənmişdir. Universitetin məzunları arasında ərəb dünyasının bir çox görkəmli mütəfəkkirləri var: İbn Haldun, Maymonid və digərləri. Onun ilk tələbələrindən biri, sonralar Mərakeş Dini Biliklər üzrə Ali Şurasının yeganə qadın üzvü olmuş Fatimə əl-Kabbaj olmuşdur.***

Bu gün Fez turistlər üçün dünyanın ən maraqlı yerlərindən biridir. Fezin köhnə hissəsi - "Fez əl-Bali" xüsusilə füsunkardır. Minlərlə dar küçələrin labirintlərini anlamağa çalışan əcnəbilər köhnə şəhərdə yerli sakinlərdən çox fərqlənirlər. Evlərin rəngarəng və nəfis bəzədilmiş qapıları, köhnə şəhərin 14 qala qapısı, o cümlədən məşhur Göy darvaza, küçələrdə primitiv araba nəqliyyatı və yerli sənətkarlıq hər kəsi ovsunlayır.








# AZSIĞORTA ASC-nin 31 dekabr 2024-cü il tarixinə BALANS HESABATI

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | **410 989,52** | **334 967,50** |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | **0,00** | **0,00** |
| **Daşınmaz əmlaka investisiyalar** | **0,00** | **0,00** |
| **Qeyri-maddi aktivlər** | **544 756,92** | **529 703,82** |
| **Təxirə salınmış vergi aktivləri** | **1 175 321,49** | **314 144,22** |
| **Uzunmüddətli debitor borcları** | **0,00** | **0,00** |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **300 050,97** | **9 799 851,64** |
| dövlət qiymətli kağızları | 300 050,97 | 8 299 868,42 |
| qeyri-dövlət qiymətli kağızları | 0,00 | 1 499 983,22 |
| sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | **312 500,00** | **312 500,00** |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0,00** | **0,00** |
| **Sair aktivlər** | **200 000,00** | **200 000,00** |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **2 943 618,90** | **11 491 167,18** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | **1 861 765,31** | **2 144 954,83** |
| birbaşa sığorta üzrə | 319 826,09 | 303 171,95 |
| **təkrarsığorta əməliyyatları üzrə:** | **779 653,28** | **615 717,49** |
| - təkrarsığortaçı üzrə | 660 134,33 | 458 744,56 |
| - təkrarsığortalı üzrə | 119 518,95 | 156 972,93 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 598 124,37 | 892 001,03 |
| iddia tələbləri üzrə | 0,00 | 0,00 |
| işçi heyəti üzrə | 0,00 | 0,00 |
| sığortalılara verilən borclar üzrə | 0,00 | 0,00 |
| sair debitorlar | 164 161,57 | 334 064,36 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **11 490 382,22** | **13 222 549,16** |
| kassa | 0,00 | 0,00 |
| hesablaşma hesabı | 1 883 226,97 | 977 775,90 |
| valyuta hesabı | 35 638,55 | 163 055,03 |
| depozit hesablar | 9 500 000,00 | 12 000 000,00 |
| sair pul vəsaitləri | 71 516,70 | 81 718,23 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **12 800 000,00** | **3 000 000,00** |
| dövlət qiymətli kağızları | 6 000 000,00 | 3 000 000,00 |
| qeyri-dövlət qiymətli kağızları | 6 800 000,00 | 0,00 |
| sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **813 201,19** | **805 839,67** |
| həyat sığortası sahəsi üzrə | 0,00 | 0,00 |
| qeyri-həyat sığortası sahəsi üzrə | 813 201,19 | 805 839,67 |
| **Sair qısamüddətli aktivlər:** | **32 225,76** | **35 629,04** |
| gələcək hesabat dövrlərinin xərcləri | 31 133,87 | 34 471,52 |
| verilmiş avanslar | 0,00 | 0,00 |
| təhtəl hesablar | 1 091,89 | 1 157,52 |
| **Sair aktivlər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli aktivlər*** | **26 997 574,48** | **19 208 972,70** |
| **CƏMİ AKTİVLƏR** | **29 941 193,38** | **30 700 139,88** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **14 007 000,00** | **14 007 000,00** |
| **Emissiya gəliri** | **0,00** | **0,00** |
| **Geri alınmış kapital (səhmlər)** | **0,00** | **0,00** |
| **Kapital ehtiyatları:** | **0,00** | **0,00** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 0,00 | 0,00 |
| digər kapital ehtiyatları | 0,00 | 0,00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **3 131 854,30** | **4 825 413,16** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 1 581 721,01 | 1 693 559,06 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | 0,00 | 0,00 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 1 550 133,29 | 3 131 854,10 |
| Elan edilmiş dividendlər | 0,00 | 0,00 |
| ***Cəmi kapital*** | **17 138 854,30** | **18 832 413,16** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **10 159 522,14** | **9 188 464,16** |
| Həyat sığortası sahəsi üzrə: | 0,00 | 0,00 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 10 159 522,14 | 9 188 464,16 |
| **Qarşısıalınma tədbirləri fondu** | **1 571 009,98** | **1 611 172,61** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | **0,00** | **0,00** |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | **0,00** | **0,00** |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | **0,00** | **0,00** |
| **Kreditor borcları:** | **0,00** | **0,00** |
| əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 0,00 | 0,00 |
| digər məcburi ödənişlər üzrə | 0,00 | 0,00 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 0,00 | 0,00 |
| **Sair uzunmüddətli öhdəliklər:** | **0,00** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **513 109,31** | **522 005,56** |
| təkrarsığortaçı üzrə | 513 109,31 | 522 005,56 |
| təkrarsığortalı üzrə | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0,00** | **0,00** |
| **Sair öhdəliklər** | **0,00** | **0,00** |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **12 243 641,43** | **11 321 642,33** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | **888,76** | **0,00** |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | **70 108,11** | **50 205,01** |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **0,00** | **0,00** |
| **Kreditor borcları:** | **487 700,78** | **495 879,38** |
| əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 27 785,29 | 41 114,33 |
| digər məcburi ödənişlər üzrə | 19 297,98 | 21 056,17 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 440 617,51 | 433 708,88 |
| **Sair qısamüddətli öhdəliklər:** | **0,00** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0,00** | **0,00** |
| **Sair öhdəliklər** | **0,00** | **0,00** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **558 697,65** | **546 084,39** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **12 802 339,08** | **11 867 726,72** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **29 941 193,38** | **30 700 139,88** |

**MƏNFƏƏT və ZƏRƏR**

| | *manatla* |
|---|---|
| **Gəlirlər** | **Məbləğ** |
| **Əsas əməliyyat gəliri:** | **9 093 252,59** |
| birbaşa sığorta üzrə sığorta haqları | 8 577 603,83 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 450 835,83 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 0,00 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 64 812,93 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **963 696,46** |
| **İnvestisiya gəlirləri üzrə** | **2 201 894,07** |
| **Subroqasiya gəlirləri** | **321 839,83** |
| **Sair gəlirlər** | **452 362,40** |
| **CƏMİ GƏLİRLƏR** | **13 033 045,35** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **3 627 366,65** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 1 527 258,39 |
| qaytarılan sığorta haqları üzrə | 37 512,71 |
| tənzimləmə xərcləri | 292 637,00 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 1 711 135,92 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 58 822,63 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 0,00 |
| **İşlərin aparılması xərcləri** | **5 865 544,86** |
| **Sair xərclər** | **1 380 827,71** |
| **CƏMİ XƏRCLƏR** | **10 873 739,22** |
| **Maliyyə mənfəəti (zərəri)** | **2 159 306,13** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **2 159 306,13** |
| **Mənfəət vergisi** | **465 747,07** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **1 693 559,06** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR BARƏDƏ HESABAT**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | CƏM |
|---|---|---|---|
| **Yanvar 01, 2024** | **14 007 000** | **3 131 854** | **17 138 854** |
| Dövr ərzində Mənfəət və ya Zərər | 0 | 1 693 559 | 1 693 559 |
| Ödənilmiş dividend | 0 | 0 | 0 |
| **Dekabr 31, 2024** | **14 007 000** | **4 825 413** | **18 832 413** |

## Pul vəsaitlərinin hətəkəti haqqında

| | **2024** |
|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin axını** | |
| Sığorta və təkrarsığorta haqlarından daxilolmalar | 8 856 114 |
| Təkrarsığortaya ötürülən müqavilələr üzrə ödənişlər | -1 595 521 |
| Qaytarılmalı olan sığorta haqları üzrə ödənişlər | -32 314 |
| Sığorta və təkrarsığorta hadisələri üzrə ödənişlər | -1 770 924 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı | 204 452 |
| Komissiya ödənişləri | -99 685 |
| Əmək haqqı fondu üzrə ödənişlər | -3 890 822 |
| Ümumi və İnzibati xərclər üzrə ödənişlər | -1 506 362 |
| Marketinq və reklam xərcləri üzrə ödənişlər | -118 081 |
| Subroqasiya üzrə daxilolmalar | 318 806 |
| Digər daxilolmalar / ödənişlər | 136 388 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən xalis pul axını** | **502 051** |
| **Mənfəət vergisi üzrə ödənişlər** | 0 |
| **Əməliyyat fəaliyyətindən xalis pul axını** | **502 051** |
| **İnvestisiya fəaliyyətindən pul axını** | |
| İnvestisiya fəaliyyətindən daxilolmalar | 1 939 665 |
| Qiymətli Kağızların alışı | -11 664 044 |
| Qiymətli Kağızların satışı | 11 192 843 |
| Banklarda yerləşdirilən depozitlər | -10 000 000 |
| Banklarda yerləşdirilən depozitlərin qayıdışı | 7 500 000 |
| Əsas vəsait və qeyri-maddi aktivlərin alışı | -58 140 |
| Əsas vəsait və qeyri-maddi aktivlərin satışı | 0 |
| İdarəçilik xərcləri | -169 721 |
| Digər müəssisələrə investisiya qoyuluşu | 0 |
| Dividenddən daxilolmalar | 0 |
| **İnvestisiya fəaliyyəti üzrə xalis pul axını** | **-1 259 396** |
| **Maliyyə fəaliyyəti üzrə pul axını** | |
| Dividend ödənişi | 0 |
| **Maliyyə fəaliyyəti üzrə xalis pul axını** | **0** |
| Məzənnə fərqi (müsbət) | 1 298 |
| Məzənnə fərqi (mənfi) | -11 786 |
| **Pul və pul vəsaitlərində xalis artma / (azalma)** | **-767 833** |
| Dövrün əvvəlinə pul və pul vəsaitləri | 1 990 382 |
| Dövrün sonuna pul və pul vəsaitləri | 1 222 549 |

M ənd J Konsaltinq

**"Azsığorta" ASC-nin rəhbərliyinə və Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə Müstəqil Auditorun Hesabatı**

**Rəy**

Biz "Azsığorta" ASC-nin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2024 il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan Maliyyə Hesabatlarının Milli Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları 31 dekabr 2024 il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Milli Standartlarına (MHMS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəyin bildirilməsi üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik hazırkı Maliyyə Hesabatlarını MHMS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan Maliyyə Hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının hazırlanması zamanı rəhbərlik, Cəmiyyəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Cəmiyyətin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən Maliyyə Hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Cəmiyyətin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin Maliyyə Hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Maliyyə Hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq Cəmiyyətin Maliyyə Hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə Cəmiyyətin Maliyyə Hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq Cəmiyyətin Maliyyə Hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmaması dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Cəmiyyətin Maliyyə Hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və Maliyyə Hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

14 mart 2025-ci il

Bakı, Azərbaycan Respublikası

E. Cəfərov

# İctimai iaşə dövriyyəsi artıb

Cari ilin yanvar-fevral aylarında ictimai iaşə dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 19,4 faiz artaraq 371,9 milyon manat olub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, özəl sektorda ictimai iaşə dövriyyəsinin 50,2 faizi hüquqi şəxslərin, 49,8 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür. Hüquqi şəxslər üzrə dövriyyə 2024-cü ilin eyni dövrü ilə müqayisədə 19,2 faiz artaraq 184,8 milyon manat təşkil edib.

# Manatla olan əmanətlərin həcmi artıb

Mərkəzi Bankın məlumatına görə, əhalinin banklardakı əmanətlərinin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12,1 faiz artaraq fevral ayının 1-nə milli valyuta ekvivalentində 14 milyard 698,7 milyon manat təşkil edib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, əmanətlərin 66,5 faizi milli, 33,5 faizi xarici valyutada qoyulub, xarici valyutada qoyulmuş əmanətlərin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,2 faiz, milli valyutada olan əmanətlərin məbləği isə 14,7 faiz artıb.

Fevral ayında milli valyutanın 1 dollara nisbətdə orta məzənnəsi 1,70 (ilin əvvəlindən 1,70) manata, 1 avroya 1,77 (1,77) manata, 100 türk lirəsinə 4,70 (4,75) manata, 100 rus rubluna 1,83 (1,75) manata bərabər olub.

# Əhalinin gəlirləri açıqlanıb

Cari ilin yanvar-fevral aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,4 faiz artaraq 11 milyard 907,1 milyon manat və ya hər nəfərə orta hesabla 1164,2 manat olub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, əhalinin sərəncamında qalan gəlirləri 10 milyard 164,8 milyon manat təşkil edib.

# Xarici ticarətdə artım müşahidə olunub

Yanvar-fevral aylarında Azərbaycan xarici ölkələrlə 8 milyard 904,49 milyon dollar dəyərində ticarət əməliyyatı aparıb.

Dövlət Gömrük Komitəsindən (DGK) bildirilib ki, bu, ötən ilin eyni dövrünə nisbətən 23,2 faiz çoxdur.

Xarici ticarət dövriyyəsinin 4 milyard 766,47 milyon dolları ixracın, 4 milyard 138,02 milyon dolları isə idxalın payına düşüb. Son 1 ildə ixrac 0,3 faiz azalıb, idxal isə 69,1 faiz artıb.

Son nəticədə xarici ticarətdə 628,45 milyon dollarlıq müsbət saldo yaranıb. Bu da illik müqayisədə 3,7 dəfə azdır.

# Hər istehlakçı məhsul və xidmətlərə orta hesabla 577,6 manat xərcləyib

Cari ilin yanvar-fevral aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 11,8 milyard manat olmaqla 2024-cü ilin yanvar-fevral aylarına nisbətən müqayisəli qiymətlərlə 5,2 faiz artıb, ümumi dəyərin 78,2 faizini pərakəndə ticarət dövriyyəsi, 18,6 faizini əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, 3,2 faizini isə ictimai iaşə dövriyyəsi təşkil edib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, qeyri-dövlət sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2024-cü ilin yanvar-fevral ayları ilə müqayisədə 5 faiz artaraq 11,3 milyard manata bərabər olub, onun 45,5 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

Hesabat dövründə bir istehlakçı orta hesabla ayda 577,6 manat və ya 2024-cü ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 51,5 manat çox vəsait xərcləyib.

# Ödəmə vaxtı keçmiş kreditlərin məbləği il ərzində 4,6 faiz artıb




Mərkəzi Bankın təqdim etdiyi məlumata görə, bu ilin fevral ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli əvvəlki ilin eyni dövrü ilə müqayisədə 20,4 faiz artaraq, milli valyuta ekvivalentində 29 milyard 325,3 milyon manat təşkil edib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, ümumi kredit portfelinin 24 milyard 448,2 milyon manatı və ya 83,4 faizi uzunmüddətli kreditlərin payına düşüb. Kreditlərin 93,8 faizi banklar, 6,2 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği il ərzində 4,6 faiz artaraq 475,1 milyon manat olub və ümumi kredit portfelinin 1,6 faizini təşkil edib.

# İqtisadi fəal əhalinin sayı açıqlanıb

Cari il martın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5313,2 min nəfər olub, onlardan 5030,4 min nəfərini məşğul əhali təşkil edib.



Dövlət Statistika Komitəsindən bildirilib ki, fevralın 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1757 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 879,5 min nəfər, qeyri-dövlət sektorunda isə 877,5 min nəfər təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda 31,6 min nəfər, qeyri-neft-qaz sektorunda isə 1725,4 min nəfər çalışıb.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,4 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,5 faizi emal sənayesində, 6,4 faizi tikintidə, 2,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 2,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1,9 faizi mədənçıxarma sənayesində, 1,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

2025-ci ilin yanvar ayında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 142,3 saat təşkil edib. Mart ayının 1-i vəziyyətinə Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 230,3 min nəfər olub, onların 47,9 faizini qadınlar təşkil edib. İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği 438,6 manat olub.

# Büdcənin icrasında ÜDM-in 7,2 faizi qədər profisit yaranıb




Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən, 2025-ci ilin yanvar-fevral ayında dövlət büdcəsinin gəlirləri 6 milyard 737,6 milyon manat, xərcləri 5 milyard 366 milyon manat təşkil edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, büdcənin icrasında 1 milyard 371,6 milyon manatlıq və ya ümumi daxili məhsulun 7,2 faizi qədər profisit yaranıb.

# “AzerGold” QSC-də qeyri-filiz faydalı qazıntı yataqları ilə bağlı növbəti seminar keçirilib



“AzerGold” QSC-də ölkə ərazisində qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti dövlət qurumları və sahibkarlıq subyektlərinin iştirakı ilə növbəti seminar keçirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında 23 dekabr 2024-cü il tarixli Sərəncamına uyğun olaraq təşkil edilmiş seminarda mövcud vəziyyətin öyrənilməsi məqsədilə aparılmış araşdırma, sahə səfərləri, sorğu və təhlillərin nəticələrinə əsasən hazırlanmış ilkin təkliflər toplusu təqdim edilib. “AzerGold” QSC-nin prosesə cəlb etdiyi beynəlxalq nüfuzlu “Boston Consulting Group” məsləhətçi şirkəti tərəfindən hazırlanan təqdimatda qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində mövcud vəziyyət, mütərəqqi beynəlxalq təcrübə və standartlar əsasında idarəetmənin təkmiləşdirilməsi və bazar iştirakçılarının qarşılaşdıqları problemlərin həlli ilə bağlı təkliflər müzakirəyə çıxarılıb.

Bildirilib ki, təkliflərin hazırlanması bu istiqamət üzrə səmərəliliyin və şəffaflığın artırılması, nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, yerli istehsalatın dünya bazarının çağırışlarına uyğunlaşdırılması, innovativ yanaşmaların tətbiqi ilə fəaliyyətin ekoloji norma və standartlar və beynəlxalq tələblər əsasında təşkil edilməsi, bazar iştirakçılarının fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi, yeni iş yerlərinin yaradılması ilə ölkənin sosial-iqtisadi inkişafına töhfələrin verilməsinə xidmət edir. Daha sonra maraqlı tərəflərin çıxışları dinlənilib, geniş fikir mübadiləsi aparılıb. Müzakirələrin nəticəsində tənzimləyici qurumların və qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı üzrə ixtisaslaşmış şirkətlərin qarşıdakı 1 həftə ərzində təkliflərlə bağlı rəylərinin yazılı formada təqdim etməsi razılaşdırılıb.

Xatırladaq ki, “Azərbaycan Respublikasında qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli Sərəncamına əsasən, “AzerGold” QSC qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı sahəsində mövcud vəziyyətin təhlil edilməsi, müvafiq bazarın öyrənilməsi və aparılacaq təhlillərin nəticəsindən asılı olaraq bu sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməldir.

Eyni zamanda Cəmiyyət beynəlxalq standartlar nəzərə alınmaqla, qeyri-filiz faydalı qazıntı yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı sahəsində milli standartların təkmilləşdirilməsi üçün təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etməli, bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.




# Mərkəzi Gömrük Hospitalının həkimləri və ölkənin aparıcı anestezioloq-reanimatoloqları könüllü orqan donoru olmağa hazırdır! Ekspertlərin zirvə görüşündən gözlənilməz nəticə



Martın 14-də Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin və Azərbaycan Anestezioloqlar və Reanimatoloqlar Cəmiyyətinin birgə təşkilatçılığı, B. Braun şirkətinin dəstəyi ilə “Qaraciyər transplantasiyasında anesteziyanın və əməliyyatdan sonra intensiv terapiyanın xüsusiyyətləri” mövzusunda respublikanın aparıcı ekspertlərinin görüşü keçirilib.

Tədbiri açıq elan edən Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim Ceyhun Məmmədov Mərkəzi Gömrük Hospitalının böyrək və qaraciyər transplantasiyası əməliyyatlarının sayına görə Azərbaycanda lider olduğunu vurğulayıb. O, həmçinin bu sahədə Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə uğurlu əməkdaşlıq barədə ətraflı məlumat verib. Bu əməkdaşlıq çərçivəsində Azərbaycanda və Cənubi Qafqazda ilk dəfə 2025-ci ildə Mərkəzi Gömrük Hospitalında meyitdən alınmış (kadavr) qaraciyərin uğurla transplantasiya olunduğunu bildirib. Bu tarixi hadisə Azərbaycanın səhiyyə sahəsində növbəti böyük nailiyyət hesab olunur.

Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və Orqan Transplantasiyası şöbəsinin transplantoloqu, t.ü.f.d. Mircəlal Kazımi çıxışında qaraciyər transplantasiyasında anesteziya, əməliyyatdan sonrakı reanimasiya və bərpa proseslərinin əhəmiyyətindən danışıb.

Tədbirin moderatorları – Azərbaycan Anestezioloqlar və Reanimatoloqlar Cəmiyyətinin sədri, İ.M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektor müavini, t.ü.f.d. Zəhra Vəzirova və Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi İdarə Heyətinin sədri, t.ü.f.d. Yeganə Abbasova bu ekspert görüşünün aktuallığını vurğulayaraq, Mərkəzi Gömrük Hospitalının qazandığı unikal təcrübənin ölkənin digər klinikalarında tətbiq olunmasının vacibliyini qeyd ediblər.



Tədbirdə Mərkəzi Gömrük Hospitalının anestezioloq-reanimatoloqları – Rəşad Nəsirli “Qaraciyər transplantasiyasında anesteziyanın xüsusiyyətləri”, Xəyal Məmmədov “Qaraciyər transplantasiyasında əməliyyatdan sonra intensiv terapiyanın xüsusiyyətləri” və Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin əməkdaşı Mədinə Quliyeva “Orqan nəqli” mövzularında təqdimatlarla çıxış ediblər.

Ekspert müzakirələrində Mərkəzi Gömrük Hospitalının rəisi, t.ü.f.d. Bəxtiyar Musayev, Səhiyyə Nazirliyinin ekspert-mütəxəssisi, ATU-nun II Müalicə-Profilaktika fakültəsinin dekanı, t.ü.f.d., dosent İsrail Məhərrəmbəyli, Mərkəzi Klinik Xəstəxanasının Anesteziologiya-Reanimatologiya şöbəsinin müdiri, t.ü.f.d. Vüqar Abdulkərimov, Kliniki Tibbi Mərkəzin Cərrahi Reanimasiya şöbəsinin müdiri Ülviyyə Qurbanova və digər mütəxəssislər müzakirə olunan mövzular barədə öz fikirlərini bölüşüblər.

Tədbirin yekununda Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev Azərbaycanda transplantasiyanın inkişafı üçün könüllü donorluq bazasının genişləndirilməsinin vacibliyini vurğulayıb.

Tədbir iştirakçıları – ölkənin aparıcı anestezioloq-reanimatoloqları könüllü orqan donoru olmaq üçün razılıq ərizə formalarını imzalayıb, tibb ictimaiyyətini bu təşəbbüsü dəstəkləməyə və təbliğ etməyə çağırıblar.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# “Bakcell” “Müasir Marketinqin Əsasları Azərbaycan Nəşri”nə qoşulub

İnnovasiya və sürət lideri "Bakcell", dünya şöhrətli marketinq nəzəriyyəçisi Filip Kotlerin 100 ölkəni əhatə edən Müasir Marketinqin Əsasları (Essentials of Modern Marketing) qlobal təşəbbüsünə qatılıb. Qısa zamanda dünya və Azərbaycan oxucularına təqdim olunacaq kitabda ölkənin aparıcı şirkətlərinin uğur hekayələri yer alacaq.

“Kotler Impact” tərəfindən idarə olunan qlobal layihədə təqdim olunan kitab silsiləsi hər bir ölkəyə özəl yanaşma ilə hazırlanaraq yerli bizneslərin uğurlarını qlobal marketinq prinsipləri ilə birləşdirir. Layihə çərçivəsində artıq 25-dən çox ölkənin, o cümlədən Avropa ölkələri, Braziliya, Hindistan, Pakistan, Türkiyə və s. bazarları haqqında nəşr edilən kitablar oxucuların böyük marağına səbəb olub. Azərbaycan nəşri ölkəmizin biznes mühitini beynəlxalq səviyyədə tanıtmağa, o cümlədən yerli marketinq mütəxəssislərinə qlobal təcrübədən yararlanmaq imkanı verəcək.

"Bakcell" bu layihəyə dəstək verməklə Azərbaycanın və regionun innovativ marketinq yanaşmalarının inkişafına töhfə verməyi hədəfləyir.

**Filip Kotler haqqında**

Müasir marketinqin atası və 80-dən çox kitabın müəllifi olan Filip Kotler marketinq sahəsində inqilabi nəzəriyyələr yaradaraq, dünya miqyasında biznesin inkişafına təsir göstərib. O, marketinqi psixologiya və iqtisadiyyatla birləşdirərək, müasir marketinqin elmi əsaslarını formalaşdırıb.

Ən məşhur əsərlərindən biri olan “Marketing Management” kitabı dünya universitetlərində marketinq dərsliklərinin əsas qaynağı kimi istifadə olunur. Onun nəzəriyyələri şirkətlərin müştəriyönümlü strategiyalar qurmasına və qlobal bazarlarda rəqabət üstünlüyü əldə etməsinə imkan yaradır.




Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500